Qəşəm Nəcəfzadə

# ŞUŞA QALXIB AYAĞA

*uşaq şeirləri*




LİBRA KİTAB

Qəşəm Nəcəfzadə

# ŞUŞA QALXIB AYAĞA

uşaq şeirləri

MÜƏLLİM VƏ PSİXOLOQLARIN * TÖVSİYƏSİ İLƏ ÇAP OLUNAN KİTABLAR *

LİBRA KİTAB

Şuşa qalxıb ayağa
Qəşəm Nəcəfzadə

Nəşrə məsul
Nicat Əliyev

Redaktor
İmanyar Quliyev

Korrektor
Fəhmin Mirzə

Rəyçilər
*Filoloq*
Vüqar Adilov
*Psixoloq*
Tahir Akqubayev

Mətn tərtibatı və cild dizaynı
Gülənbər Əhməd

Bu kitaba tanınmış şair və publisist Qəşəm Nəcəfzadənin qələmə aldığı bir-birindən maraqlı şeirlər daxil edilmişdir. Bu şeirlər balacalara həm dürüst, çalışqan olmağı, həm də Vətən sevgisini aşılayır.

AZE. Nəcəfzadə Q. Şuşa qalxıb ayağa. Bakı: "Libra kitab". 2023, 40 s.
Tel.: (012) 480-16-93
(070) 580-16-93
www. librakitab.az
librakitab.az
info@librakitab.az
ISBN 9789952492521

Bu kitabın müəllif hüquqları "Libra kitab" MMC-yə məxsusdur. "Libra kitab" MMC-nin rəsmi razılığı olmadan kitabın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması və çoxaldılması qadağandır.

LİBRA KİTAB

© Libra kitab - 2023

# Mündəricat

Şabalıd ..... 5
Uşaqlar ..... 6
Barmaqlar ..... 8
Quzu ..... 9
Quşlar yıxılar ..... 10
Nəğmə ..... 11
Çəmənlik ..... 12
Kökə ..... 13
İtmiş nəğmə ..... 14
Qazlar ..... 15
Kuklası böyüsün ..... 16
Kələm ..... 17
Qoz ..... 18
Kəklikotu ..... 19
Fındıq ..... 20
Gözümü yuma bilmərəm ..... 21
Quşlar da... ..... 22
Dəvə ..... 23
Qaşqa at ..... 24

Su .......... 25
Sevincin "kökə" payı .......... 26
Tural və dəniz .......... 27
Çoban Səfər .......... 28
Top .......... 29
Əgər .......... 30
Çiçəkli xalça .......... 31
Xanlar .......... 32
Ana .......... 33
Qarabağ .......... 34
Lövhə .......... 35
Deyəsən .......... 36
Əsgərin ürəyi .......... 37
Dava-dava oyunu .......... 38
Ana ürəklidir .......... 39
Əlifbam .......... 40

# ŞABALID

Üşümüşdü şabalıd
Geyinmişdi çuxasın.
Qoydum peçin üstünə
O, tez açdı yaxasın.



# UŞAQLAR

Gəlin düşək səngərdən, çəkilək bir az geri,
Qaldıraq səngərlərə balaca uşaqları.
Nə qədər uşaq var qoy onlar da gətirsin,
Dayansınlar üz-üzə, açılsın dodaqları.

Düşmən kəlməsi yoxdur uşaqların dilində,
Olsa-olsa, əllərini bir-birinə vurarlar.
Səngərlərin içində, səngərlərin çölündə
Lay-lay deyib kuklaya qəşəng evcik qurarlar.

O əsgər çəkməsinin izinə bax torpaqda,
Beş uşağın ayağı sığar onun içinə.
Dünən həmin ləpiri gilizlər doldururdu,
Bu gün uşaq səsləri yağır onun içinə.

İnsan bayraqlarıdı göydə oynayan əllər,
Öpürlər gülə-gülə bir-birinin əlini.
Biz öyrənə bilmədik dostluq dilini heç vaxt,
Gəlin gedək öyrənək körpələrin dilini.

Uşağa bax, əyilib boş patronu götürür,
Bələyir körpə kimi laylay deyir gör necə?
O güllənin dəydiyi o əsgərin anası,



Necə ki bələyirdi öz oğlunu beləcə.
Ehey, sən kimsən, qaranlıqda gizlənən?!
"Düşmən" sözünü atma uşaqların içinə.
Silahını yığışdır, rədd ol bizim dünyadan,
Qarışma, sən, qarışma, uşaqların işinə.

Uşaqların ayağı torpağı bölə bilmir,
Necə ki eyni yağır yer üzünə yağışlar.
Sülh haqqında yazılmış iki gözəl misradı:
Bir göy üzündə quşlar,
Bir də yerdə uşaqlar.



# BARMAQLAR

Barmaqlarım ovcuma
Baş qoydular yatdılar.
Səhər özümdən qabaq
Yerlərindən qalxdılar.





# QUZU

Qumral qoyunum tez-tez
Quzusunu yaladı.
Neyləsin ki, quzusu
Yenə ala-buladı.



# QUŞLAR YIXILAR

Ağac olmasa, görən,
Quşlar hara yığılar?
Əmi, kəsmə ağacı
Axı quşlar yıxılar.





# NƏĞMƏ

– Ay qızım, oxu bir də
O nəğməni nə olar?
– Ay ata, olmaz axı,
Birdən nəğməm yorular.





# ÇƏMƏNLİK



Batdı torpağa
Yağış dimdiyi.
Çəkib çıxartdı,
Bu çəmənliyi.





# KÖKƏ

Sevinc kuklaya
Verib kökəni,
Getdi gətirsin,
Toyuğa dəni.

Qayıdıb gördü,
Yox olub kökə.
Saldı kuklanı,
Yaman pis kökə.





# İTMİŞ NƏĞMƏ

Sevinc unutdu birdən,
Nəğmənin sözlərini.
Nəğməni tapmaq üçün
O yumdu gözlərini.

Heç düşmədi yadına,
Ha çalışdı, çalışdı.
Nəğməni ürəyindən
Kimsə oğurlamışdı.





# QAZLAR

Sevincə deyiblər ki,
Yeri, qaytar qazları.
O da gedib çağırıb,
Evcik quran qızları.



# KUKLASI BÖYÜSÜN

Sevinc kuklasına,
Paltar tikibdi qəşəng.
Di gəl kuklasına,
Gendi tikdiyi köynək.

Qalıbdı yana-yana,
Heç bilməyir, neyləsin?
Bir əlac qalıb ona,
Gərək kukla böyüsün.





# KƏLƏM

Soydu qabığını
Sevinc kələmin.
Dedi ki, görən,
Harasındadı
Kələm kələmin?
Çağırdı hələ,
Dostu Kərəmi.
Kərəm də soydu
Yenə kələmi.
Tapmadılar heç,
Axırda Sevinc
Gedib dedi ki,
Tez ol gəl, əmi,
Tapaq kələmi.



# QOZ

Qoz ağacına
Tural qoz atdı.
Qoz yoldaşını
Tez götürüb qayıtdı.





# KƏKLİKOTU

Kəkliklə mən
Yığdıq dağdan
Kəklik otu.
Gəzdik dağı,
Endik diki,
Bir də gördüm,
İtiribdi
Kəklik otu.
Çox dolandıq,
Çox fırlandıq,
Mən oturdum
Dedim, sən də
Kəklik, otur.
Baxıb gördük
Daşın dibi
Kəklikotu.



# FINDIQ

Tural qırdı fındığı,
Fındıq boşdu, lap boşdu.
Bu yoxluqdan qorxdu o,
Hələ rəngi də qaçdı.

Tulladı qabıqları
Bucaqdakı ləyənə.
Ürəyində söydü o,
Fındığını yeyənə.





# GÖZÜMÜ YUMA BİLMƏRƏM

– Otağı süpür, qızım.
– Süpürmüşəm, anacan!
– Mənə su gətir, qızım.
– Gətirmişəm, anacan!
– Paltarları yumusan?
– İndi yudum, anacan!
– Çörəyini yemisən?
–Yedim, doydum, anacan!
– Di gözünü yum görüm,
Sənə bir şey göstərim.
– Gözümü yumsam, ana
Sənsiz qalaram axı.
İstəmirəm bircə an,
Mən sənsiz yaşamağı.



# QUŞLAR DA...

Yazılıb ağaca
Turalın adı.
Quşlar da orada
Yuva qurmadı.





# Dəvə

Tural həmişə
Minir dəvəyə.
Çapır dəvəni
Üzü küləyə.
Heç kəs inanmır,
Bu möcüzəyə.
Sən demə, Tural
Dərsdən gələndə
Açır gəbəni.
Sonra da minir,
Şəkil dəvəni.



# QAŞQA AT

Getdi qış, əridi qar,
Yamacların yalında.
Bir ovuc qar qalıbdı
Atımızın alnında.





# SU

Tural bir təpik
Vurdu vedrəyə.
Su da inciyib
Qaçdı dərəyə.



# SEVİNCİN "KÖKƏ" PAYI

Arı vurub Sevincin
Sağ gözünün altına.
Üz-gözünü gizlədir,
O utana-utana.

Çağırırlar Sevinci
Uşaqlar düzdə, yolda.
Kökə yeyən Sevincin
Kökəlibdi sağ gözü,
Olubdu kökə boyda.





# TURAL VƏ DƏNİZ

– Dəniz, dəniz, ay dəniz,
İndi yaman acmısan.
Uzadıb əllərini
Sahilini qucmusan.

Yemək üçün indi sən
Yamanca ağlayırsan.
İçindəki balığı,
Nə vaxta saxlayırsan?

Yoxsa sənə gülərlər,
Ye balıqdan doyunca.
Çaylar su gətirərlər
İndi sənə ovcunda.

– Bu sözümü, ay Tural,
Sırğa elə qulağa.
Dəniz acından ölər,
Amma dəyməz balığa.



# ÇOBAN SƏFƏR

Səfərə bax, Səfərə
Gedib çıxıb çəpərə.
Demə, çəpər çürükmüş,
Dəyib üz üstə yerə.

Demə, çəpərin üstə
Boranılar varıymış.
Demə, çəpərin üstü
Dolu yuvalarıymış.

Sınıbdı qabırğası
Əyri-üyrü çəpərin.
Pozulub halı, kefi
Qara gözlü Səfərin.

Elə bil ki bu yerdən
Quşlar küsüb haçandı.
Boranılar quzudu
Səfər indi çobandı.





# TOP

Tural, topu
Tullanıb tut.
Əlimizdə
Top qızarıb
Allanıb top.
Görmürsənmi,
Əyri gedir
Yolun azıb,
Aldanıb top.
Tural, tez ol
Tullanıb tut.



## ƏGƏR

Balaca Tural
Ağladı bir gün.
Tez olun mənə
Şokolad verin.
Əgər siz mənə
Top almasanız,
Dənizə, çaya
Aparmasanız,
Dəvəyə, ata
Mindirməsəniz,
İşdən gələndə
Şəkil kitablar
Gətirməsəniz,
Bir gün gözümü,
Yumacağam mən,
Qalacaqsınız
Qaranlıqda siz.





## ÇİÇƏKLİ XALÇA

Xalça çiçək-çiçəkdi,
Hər ilməsi göyçəkdi.
Sevinc bir çiçəyindən,
Tutdu çəkdi, ha çəkdi.
Nə çiçək qopdu yerdən,
Nə də çiçək əl çəkdi.



# XANLAR

Gilənardan o qədər
Yedi doymadı Xanlar.
Lap axırda özü də
Çönüb oldu gilənar.

Anası öpdü, öpdü
Göyçəkləşən Xanları.
Sıxıldı dodağına
Gilənartək xalları.

Ağacın budaqları
Saralıbdı, solubdu.
Xanların yanaqları
Gilənarla dolubdu.





# ANA

– Ana, dəniz çəkmişəm,
Sular axsa da, dolmaz.
– Yox qızım, yanılmısan,
Dəniz dalğasız olmaz.

Dəniz çoşar, ha daşar,
Şahə qalxar dalğası.
Hər xırda gölməçədən
Dəniz olmaz, qadası.

– Yatan zaman çəkmişəm,
Mən dənizi, aya ana!
Oyansa, bu dənizim,
Dönəcəkdir tufana.



# QARABAĞ

Qəribə qızdır Aysu
Bayraq tutub əlində,
Dönə-dönə söyləyir,
Bayraq bitib əlimdə.

Əlində qara torpaq,
Torpağın üstə bayraq.
Deyir, ay ata, bax, bax...
Torpaq bitib əlimdə...

Biz qələbə çalmışıq,
Qarabağı almışıq,
Gör nə gözəl yaraşır
Bax, Qarabağ əlimdə.





# LÖVHƏ

Yıxılmışdı torpağa
"Şuşa" yazılan lövhə.
Aysu hey soruşurdu,
Atasından hər dəfə:

– Nə çətin işmiş belə,
Qaldırmaq bir lövhəni.
Mən özüm qaldıraram,
Apar ora sən məni.

Ata hey kövrələrdi,
Aysunun bu sözündən.
Başın yana əyərdi,
Yaş düşərdi gözündən.

Aysu sevindi bir gün,
Sığışmadı otağa.
Televizorda gördü ki,
"Şuşa" qalxıb ayağa.



# DEYƏSƏN

Yağış yağır, isladır,
Gülü, daşı, torpağı.
Qızım yerin üstünə,
Sərir güllü yaylığı.

Deyir, yer islanmasın,
Tez-tez həyətə düşür.
Dünyanı qorumağı,
Deyəsən, başa düşür.





# ƏSGƏRİN ÜRƏYİ

Kəramətin əmisi
Gəlibdi əsgərlikdən.
Papaq, ulduz və nə nişan,
Gətiribdi nə desən.

Kəramət əmisindən,
Alıb geydi paltarı.
Pencək böyük, neyləsin,
Yerə dəyən qolları.

Hələ şalvar bir yana,
Papağı da yekədi.
Bu paltarlar içində
Kəramət bir tikədi.

Ağlama, oğlum, belə,
Qoy ömrün yaşa dolsun.
Təki əsgərin, bala,
Böyük ürəyi olsun.



# DAVA-DAVA OYUNU

Dava-dava oynayırdı
Turalla Azad.
Azad faşistdi,
Tural partizan.
İkisi də xoşbəxt, azad.
Qaçırdılar hey aşağı,
Yuxarı,
Birdən faşist Azad,
Vurdu bizim Turalı.
Tural əyildi Mehdi
kimi,
Kinoda gördüyü kimi.
Azad qışqırdı: yıxıl, tez
ol.
Birdən Tural
Tez əl atdı cibinə
Çıxartdı "qumbara"nı,
Bir qırmızı almanı
Tulladı, al.
Alma dəydi Azada,
Ayağı qalxdı göyə,
Başı bulandı toza.
Eşələndi, toz elədi,
Kinoda da belədi.

Qurtardı dava,
Başlandı əsl dava.

Oturub Azad,
Bir qırmızı almanı,
Şirin-şirin yeyirdi.
Yazıq Tural elə hey
"Ver almamı" deyirdi.





# ANA ÜRƏKLİDİR...

Sınsa kuklası,
Ağlayarlar hey.
Körpə vaxtından
Özləri bəbə
Saxlayarlar hey,
Ana ürəklidir
Qız uşaqları.

Yemək verərlər,
Laylay deyərlər,
Böyük qardaşa
Çay dəmləyərlər.
Ana ürəklidir
Qız uşaqları.

Ev süpürərlər,
Paltar tikərlər,
Evin içində
Evcik tikərlər.
Ana ürəklidir
Qız uşaqları.



# ƏLİFBAM

Hərflərin yuvası,
Əlifbam, ay əlifbam.
Şirin ana laylası,
Əlifbam, ay əlifbam.

Anamın səsi səndə,
Körpə nəfəsim səndə.
Arzum, həvəsim səndə
Əlifbam, ay əlifbam.

Sən mənim ilk kitabım,
Vətənim, yurdum, adım.
Vərəqlərin qanadım,
Əlifbam, ay əlifbam.

Təzə kövrək çiçəyəm,
Səndən su içəcəyəm,
Sənə and içəcəyəm,
Əlifbam, ay əlifbam.





## Qəşəm Nəcəfzadə

Tanınmış şair-publisist, Əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadə 1959-cu ildə İmişli rayonunda anadan olub. 1981-ci ildə Kirovabad Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsini bitirib. Uzun illər orta məktəb və universitetlərdə ali kateqoriyalı ədəbiyyat müəllimi işləyib.. Azərbaycan Yazıçılar Birliyinin "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri, uşaq ədəbiyyatı seksiyasının rəhbəri və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Qızıl kəlmə" və "Milli kitab" mükafatı laureatıdır. 30-dan artıq kitabın müəllifidir. Şeirləri 20-dən çox dilə tərcümə edilib.



3 ₼

www.librakitab.az
9 789952 492521

hər kitaba bir ağac